AZƏRBAYCAN ORDUSU

*Ordu və cəmiyyət*

# “Hamımız Vətən müharibəsinin əsgəriyik”



Vətən mənəm, Vətən sənsən, Vətən bizik.

Varlığımız, qürurumuz olan Vətən təkcə torpaq, ocaq, yurd deyil.

Vətən üçün yaşayırsansa, Vətəninsən;. Vətənin dününə, bu gününə, sabahına hamımız cavabdehik. Vətənini, yurdunu sevənlərdi, dövlət atributlarına hörmətlə yanaşanlardı, onu qoruyan, hər an üçrəngli bayrağını uca tutanlar əsl vətəndaşlardı. Xalqı xalq edən milli kimliyinə sədaqətidi, vətənsevərliyidi, bu sevgini yaşam fəlsəfəsi bilənlərin milli-xəlqi ruhu yaşatma qüdrətidi. Azərbaycan xalqını dünya belə tanıyıb. Vətənsevərlik, xeyirxahlıq, mərhəmətlilik kimi ali mənəvi keyfiyyətləri, mənəvi dəyərləri yaşadanlar xalqın milli varlığını yaşatma cəfakeşləridi.

Vətən müharibəsi gedir. Hamı özünü Vətənin əsgəri bilir. "Avtotəlim usta klubu"nun əməkdaşları kimi...

Klubun ustalarının təşəbbüsü mənəvi kamilliyin, vətənsevərliyin təzahürüdür. Onlar Müdafiə Nazirliyinin icazəsi ilə cəbhədə ehtiyacı olan avtomobil texnikalarını təmir ediblər. Bu təşəbbüs bir söhbətə sığmasa da, ustalarla söhbətləşməyi qərara aldıq. Usta Afiq Rüstəmov dedi ki, bu günlərdə Vətənimizin, xalqımızın taleyüklü kimliyindən asılı olmayaraq hamı bu müharibənin əsgəri olmalıdır. “Döyüşənlər döyüşməlidir, döyüşməyənlər döyüşənlərin qələbəsi üçün öz iş yerində daha məsuliyyətlə, qələbə naminə təşəbbüslərlə işləməlidir. Əhalinin özü özünü səfərbərliyə belə cəlb etməsi Vətən müharibəsinin qələbə ilə başa çatmasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm amillərdən biridir. Kömək məqsədilə iki dəfə ön xətdə olduq. Birinci gedişimizdə 14, ikinci gedişimizdə 10 nəfər peşəkar, sözün əsl mənasında, təcrübəli ustalarla getmişdik. Səfərlərimizdə, yəni, bir həftə ərzində onlarla avtomobili təmir etdik. Təcrübəli ustalarımız müxtəlif markalı avtomobilləri qısa müddətdə istismara hazırladılar. Birinci gedişimizdə ancaq Beyləqanda işlədik, ikinci gedişimizdə Daşkəsəndə, rəşadətli ordumuzun işğaldan azad etdiyi Cəbrayılda, Hadrutda avtomobillərin təmiri ilə məşğul olduq. Taleyimizdən razıyıq ki, Vətən müharibəsində döyüşçülərimizə köməyimiz dəyir. Düşməndən qənimət olaraq götürülmüş texnikaların təmir olunaraq istifadəyə hazır olması bizə könül xoşluğu verir. Sevinirik ki, döyüşə-döyüşə qələbələr qazanan ordumuza qarşı istifadə olunan bu texnikalar bundan sonra müharibə başa çatana kimi özlərinə qarşı istifadə olunacaq.



Həmsöhbətim onu da dedi ki, işğaldan azad edilən ərazilərimizdə olmaq insanda olduqca xoş ovqat yaradır. “Sevinirsən və sevinc qarışıq bir kövrəklik də yaşayırsan. Arzuladığın, həsrətini çəkdiyin anları yaşadıqca bu anları şükranlıq bilirsən: qazanılacaq qələbələrdə mənim də bir zərrə belə əməyin var. Qubadlının işğaldan azad edilməsini elə orada eşitdik. O anlarda keçirdiyimiz hissləri sözlərlə ifadə edə bilməyəcəm”.

Vətən müharibəsi gedir. Ürəyi Vətən üçün, torpaq üçün döyünənlər də əsgərdi, işlədiyi sahədə Vətən üçün döyüşür.

Afiq Rüstəmov klubun təşəbbüsünün həyata keçirilməsinə şərait yaratdığına görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirərək dedi ki, Böyük Qələbədən sonra minlərlə vətəndaş belə xahişlərlə işğaldan azad edilmiş ərazilərimizə getmək istədiyini bildirəcək...

"Hər birimizin qəlbində müqəddəs bir hiss - Vətən sevgisi mövcuddur", - təcrübəli usta Orxan Cəfərov belə dedi. - Bu müqəddəs sevgi ilə bağlı Həzrəti Peyğəmbərimiz belə buyurmuşdur: "Sərhəd boyunca Vətəni qoruyan gözləri cəhənnəm atəşi yandırmayacaqdır, Allahın razılığı üçün Vətən sərhədlərini qoruyanlara isə daim savab yazılacaqdır". Vətən sevgisi bir ümmandır. Biz bu kəlamları yaşada-yaşada yaşayırıq, yaşayacağıq....

Əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam edir. Ordumuz strateji yüksəklikləri, qəsəbələri, kəndləri, şəhərləri düşməndən azad edir. Ordusu darmadağın edilən düşmən Azərbaycan Ordusunun qarşısında dayana bilmir. Azərbaycan əsgərinin şücaət və rəşadətinin nəticəsidir ki, duşmənin ön xəttinin və müdafiəsinin dərinliyində yerləşən xeyli sayda hərbi obyektləri, döyüş texnikası və canlı qüvvəsi sərrast atəşlə məhv edilib. Düşmən döyüş meydanında məğlub olduğunu anlayır, bunun acısını mülki insanlara, infrastrukturlara raket zərbələri vurmaqla azaltmağa çalışır. Buna baxmayaraq, Vətən müharibəsi Böyük Qələbə ilə başa çatacaq.

Usta Hikmət Süleymanov dedi ki, qismən səfərbərlik elan edilməklə bir ay müddətinə 4 şəhər, 3 qəsəbə, 150-dən çox kənd işğal azad edilmişdir. “Bütün bunlar dövlət başçısının azərbaycançılığının, sərkərdəlik məharətinin və Azərbaycan Ordusunun qüdrətinin nəticəsidir. Biz də var səsimizlə deyirik: Qarabağ Azərbaycandır.



Taleyimizdən razıyıq ki, yazılan tarixin həm şahidi, həm də iştirakçısıyıq”.

Nicat Hacıyevin dedikləri də maraqla dinlənildi: “İnsan Vətən üçün yaşamalıdır. Özünü Vətəninə, xalqına, millətinə borclu bilməyənlərin ömrü səmərəsiz yaşanılmış illərdir. Əsl insan, əsl vətəndaş elə yaşamalı, qəlbində Vətənə və insanlığa olan borcu elə yaşatmalıdır ki, onun həyatı əbədi bir məşəl kimi bəşər həyatını işıqlandırsın. Vətəndaşlıq borcunu dərindən dərk edənlər, bu borcu ürəklərində əbədi bir amal kimi yaşadanlar həmişə həyat mübarizəsindən şərəflə çıxır, əməlləri ilə urəklərdə yaşayır, ölümdən sonra da ölümsüzlüyə, əbədiyyətə qovuşurlar”.

Ustalardan Həsənağa Əlili, Firuz Talıbzadə, Rüstəm Tahirov, Ramil Əbdürəhmanov, Ağasif Mehdiyev, Elşad Sultəmədov, Pərvin Abbasov, Vüqar Musəvi, Rövşən Qurbanlı, Xəyal Ağcabəyli, Dilavər Əhmədov, Fuad Mustafayev, Yasin Məmmədəli dedilər ki, belə bir zamanda dövlətimizin, ordumuzun, əsgərlərimizin yanında olmaq hər bir vətəndaş üçün böyük şərəfdir. “Vətənimizin bütövlüyünü, milli birliyimizi, qürurumuzu, düşüncəmizi yaşatmaq üçün hər bir kəs özünün vətəndaşlıq borcunu ləyaqətlə, layiqincə yerinə yetirməyə borcludur. Bu borc insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır”.

Vətən borcu ömrü boyu ödənilməli borcdur. "Avtotəlim usta klubu"nun əməkdaşları ömür payını bu borcun ödənci bilir...

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**